# GÜNDOĞAR

Qəzet 1931-ci ildən çıxır | NEFTÇALA RAYON QƏZETİ | 31 iyul 2023-cü il, № 20-21 (68056)




HEYDƏR ƏLİYEV: "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar"

# SARSILMAZDIR BU TƏMƏL!

2023-cü il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 - illik yubileyi ilə əlaqədar olaraq böyük şəxsiyyətin adı ilə "HEYDƏR ƏLİYEV İLİ" adlandırılmışdır. Biz bir daha böyük şəxsiyyətin fəaliyyətinə, keçdiyi təlatümlü ömür yoluna baxdıq. Baxdıq və hər birimiz öz düşüncəsinin dərin qatlarında bu fikri təsdiqlədi ki, Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun belə övladı, böyük rəhbəri var. Onun yolu azadlıqdır, onun yolu dirçəlişdir, inkişaf və gələcəyə doğru inamlı qətiyyətdir. Bu yol azərbaycançılıq, millilikdir. Öz kökünə qayıdışdır. Keçmişin təlatümlü dönəmlərini unutmamaqdır. Bu ULU ÖNDƏR yoludur.

Böyük rəhbər, unudulmaz lider Heydər Əliyevin həyat yolunda önəmli rəqəmlərdən biridir 14 iyul 1969-cu il tarixi, səhifəsi. Günlər ötür, tarix yazılır, yenidən baxırıq o illərə. Bir daha təhlil edərkən qazandığımız inamı heç nə əvəz edə bilmir. Bilirəm ki, bu tək mənim düşüncəmdə deyil, milyonların düşüncəsində məhz belədir. O xalqını sevən, daim onun gələcək inkişaf yollarını dərindən düşünən, daha uzaq illərə reallaşa biləcək qətiyyətli inkişaf proqramları ilə irəliləyən dahi idi.



Ulu öndərin 100 –illik yubileyi münasibətilə sərəncam imzalayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müstəqil Azərbaycan Respublikasının memarı olan unudulmaz liderin həyat və fəaliyyətinin bir daha öyrənilməsinə, onun gördüyü böyük işləri heç zaman unutmamağa, əksinə, onun Azərbaycan xalqı, dövləti üçün xidmətlərini daha da yüksəltməyə, qorumağa səsləmişdir. O yolun ki, məqsədi, məramı aydındır, ona hansı əsrdən baxılsa da, heç zaman işığı azalmayacaqdır. Bu yolda xalq var, dövlət var. Bir də onların inamı ilə yüksələn ZƏFƏR yolumuz, bayrağımız var.

Ulu öndərin çoxşaxəli fəaliyyəti o qədər geniş, dərin, əhatəlidir ki, biz bunu ancaq onun öz ifadələri ilə qeyd etməklə düzgün aydınlaşdıra bilərik. Bu gün biz o böyük, dahi insanın həyatında önəm daşıyan günlərdən birini-14 iyul tarixini qeyd edirik.Tarix hər daşı illərin süzgəcindən keçirərək öz yerinə qoyur.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrün I mərhələsi (1969-1982-ci illər) xalqın yaddaşında respublikamızda nainki iqtisadi yüksəliş, eyni zamanda quruculuq, abadlaşdırma, yeni yaşayış məskənlərinin tikilməsi, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və məişət mədəniyyətinin yüksəldilməsi dövrü kimi qalmışdır. Həmin illərdə istər kənd yerlərində, istərsə də şəhərlərdə əhalinin xeyli hissəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılmış, yeni yaşayış massivləri tikilmiş, fərdi evlərin sayı çoxalmış, insanların maddi rifahı xeyli yüksəldilmişdir.1969-1982-ci illər ərzində Heydər Əliyev tərəfindən Azərbaycanda quruculuq, abadlaşdırma və sosial-ekoloji problemlərin həlli istiqamətində həyata keçirilən kompleks tədbirlər-yaşıllaşdırma, abadlaşdırma işləri, atmosfer, su və torpağın ekoloji cəhətdən qorunması, əhalinin içməli su ilə təmin edilməsi, mənzil tikintisi, şəhərsalma və s. ilə bağlı tədbirlər son nəticədə əhalinin məişət mədəniyyətinin yüksəldilməsində öz əksini tapmışdır. Təsadüfi deyildir ki, Ulu öndər fəaliyyətinin ilk günlərində - "Zəhmətkeşlərin maddi rifahını daha da yüksəltməyə, adamların əmək və məişət şəraitini daha da yaxşılaşdırmağa daim qayğı göstərmək bizim ən doğma işimizdir" deyərək, gələcək məqsədinin əsas istiqamətini bildirmişdir. Bu gün iqtisadi möcüzələr ölkəsi, islahatçı və zəfər qazanmış ölkə olaraq Azərbaycanın mövcud potensial imkanları məhz Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə yaradılmışdır. Ən əsası onun xidməti illərində azərbaycançılıq məfkurəsi xalqımızın şüurunda əsas yer tutdu, zaman-zaman bu ideyanın ətrafında sıx birləşmək əsas məqsədə, amala çevrildi.

Ulu öndər Heydər Əliyev hakimiyyətinin ikinci dövründə I dövrün, 1969-1982-ci illərdə görülən işləri belə xarakterizə etmişdir: "O dövrlərdə yaranmış iqtisadi potensial da bizim böyük sərvətimizdir. Bu sərvət də Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbacanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır".

Böyük şəxsiyyət, xalqına bağlı lider Heydər Əliyev deyirdi: "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam!"

Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət etmiş, bütün güc və bacarığını Azərbaycan xalqının rifahına və milli dövlətçilik ideyalarının reallaşdırılmasına yönəltmişdir. O özünün həyat amalı haqqında danışarkən demişdir: "İstər bir azərbaycanlı, istər Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezident kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Həmin illərdə Azərbaycanda istər elm və təhsil, istərsə də iqtisadiyyat, quruculuq sahəsində görülən işlər diqqəti çəkməkdə idi. Heydər Əliyevin böyük səriştəsi, bacarığı, idarəçilik, təşkilatçılıq səyləri nəticəsində respublikamızda yüksək nailiyyətlər əldə edilmişdir. Ulu öndər İttifaq rəhbərliyinə qədər yüksəlmişdir. O 1976-cı ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabr ayında Siyasi Büro üzvü seçilmişdir. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir.

Biz bu siyasətin, bu sədaqətin davamını bu gün Ali Baş Komandan cənab İlham Əliyevin fəaliyyətində aydın görürük. Azərbaycan öz torpaqlarının azadlığı uğrunda 44 gün davam edən Vətən müharibəsində zəfər qazanmaqla bütün dünyaya varlığının himnini oxuya bilmişdir. Bu Ulu öndər yadigarı müstəqil Azərbaycan Respublikasıdır!

# TARİXİMİZDƏ 14 İYUL 1969-cu il SƏHİFƏSİ

14 iyul 2023-cü il tarixində Neftçala rayonunda Ulu öndər Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəlməsi ilə əlaqədar olaraq "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda dəyirmi masa ətrafında görüşlər keçirilib. Rayon ərazisində bir neçə yerdə təşkil olunan görüşlərdən biri də Neftçala rayon Heydər Əliyev Mərkəzində təşkil olunmuşdur. Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, rayon ağsaqqalları və ictimaiyyət nümayəndələri iştirak ediblər.





Görüş iştirakçıları tərəfindən Neftçala şəhərində Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə ucaldılan əzəmətli heykəli ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb, Ümummilli Liderin əziz xatirəsi ehtiramla yad edilib və Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən guşəyə baxış keçirilib.



Rayon üzrə təşkil edilən görüşlərdə tarixi mərhələlərə baxış keçirilərək inkişafın səbəbləri qeyd edilib. Azərbaycanın dünəni və bu günü təhlil edilərək baş verən hadisələrin inkişaf qaynağı kimi Ulu Öndərin dərin zəkası ilə işıqlandırılan yolların aydınlığı qeyd edilib.

*Davamı səh. 2-də*

# TARİXİMİZDƏ 14 İYUL 1969-cu il SƏHİFƏSİ

*Əvvəli 1-ci səhifədə*

Çıxış edənlər bildiriblər ki, 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycanda rəhbər seçildiyi ilk gündən Azərbaycanı ağır vəziyyətdən, böhrandan çıxarmaq üçün bütün qüvvəsini səfərbər etmişdir. 1969-1982-ci illərdə Azərbaycanda ən qabaqcıl texnologiya istehsalı, elmin qabaqcıl nailiyyətlərinin istehsalata tətbiqi, xalq təsərrüfatının dinamik inkişafı, mədəniyyətin çiçəklənməsi və s. nailiyyətləri göstərmək olar ki, həmin illərdə Ulu Öndər Heydər Əliyevin atdığı hər addımda Azərbaycanın gələcəyini düşünməsinin şahidi oluruq. Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin milli dövlətçiliyimizin ideya və təməlində dayanan siyasətinin nəticəsidir. Məhz bu siyasət Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək 44 günlük Vətən müharibəsində parlaq Zəfərin əldə olunmasına səbəb olmuşdur. Məhz xalqımızın bu yolda birlik nümayiş etdirməsi- bu yola inamının bariz nümunəsi idi.

Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov bildirib ki, müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Azərbaycan xalqının Ümummilli Lideri, dünya şöhrətli dövlət xadimi Heydər Əliyev böyük siyasətdə qarşıya qoyduğu hədəflərə doğru irəliləyərkən təkcə daxili inamına, iti fəhminə, yüksək intellektinə, parlaq zəkasına deyil, həm də ictimai etimada əsaslanıb, ən böyük dəstəyi xalqdan alıb. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. Belə tarixi uğur, yüksəliş Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi və qüdrətli sərkərdəliyi ilə Azərbaycanın ərazi bütövlüyü təmin olunması ilə müasir tariximizin ən parlaq səhifəsi kimi yazıldı yaddaşlara. Bu gün əminliklə deyə bilərik ki, 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərin, ölkəmizdə dinamik inkişafın əsasında Heydər Əliyevin ideyaları, onun formalaşdırdığı nadir inkişaf strategiyası dayanır.

Təşkil edilmiş tədbirlərdə həmçinin Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarxın nümayişi də iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

# 21 İYUL – Birinci Şuşa Qlobal Media Forumu



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: "Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır, eyni zamanda, Şuşa bizim Qələbəmizin rəmzidir, sülhün rəmzidir. Çünki Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatdı. Şuşa həm də bizim cəsarətimizin rəmzidir".***

Azərbaycan xalqı işğala məruz qalmış torpaqlarına sahib çıxdı. 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində mənfur düşmənə layiq olduğu cavab verildi. Əlbəttə ki, bu vandal xəyanətkarlara daha da sərt cavab verərək birdəfəlik, son bir nəfərinə kimi yurdumuzdan çıxarmaq da olardı. Lakin Azərbaycan Respublikasının Prezidenti cənab Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi biz, "Azərbaycan dövləti multikultural dəyərləri ali bilən tolerant bir ölkədir. Burada müxtəlif xalqlar eyni bərabər huquqlarla xoş şəraitdə yaşayır". Mənfur düşmən olan ermənilər isə dədə-baba torpaqlarımızda özlərinə "respublika" yaratmaq xülyasından qopmaq istəmirlər. Bu artıq onların özlərinə olan münasibətin yeni formata düşməsini ortaya çıxarır.

2022-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət paytaxtı elan edilən Şuşa bu günlər yenə də Beynəlxalq səviyyədə qonaqların gəlişinə sevinmişdir. 2023-cü ildə TÜRKSOY-un paytaxtı elan edilən, azad edilən gündən yerli və beynəlxalq səviyyəli tədbirlərə ev yiyəsi olan Şuşa cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, həm də bizim bir xalq olaraq "Cəsarətimizin rəmzi"dir!

Bəli, elə bu cəsarətdir ki, 2022-ci ildə yerli media nümayəndələrinin iştirakı ilə təşkil olunan Form, bu gün beynəlxalq miqyasda, müxtəlif ölkələrdən gələn tanınmış media nümayəndələrinin iştirakı ilə belə böyük bir tədbirin həyata keçirilməsinə ev sahibi olmuşdur.

2023-ildə, Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyində Şuşa şəhərində Prezident İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən Forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb. Həmçinin Forumda 60 yerli media rəhbəri və nümayəndəsi iştirak etmişdir.



Forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlərin müzakirəsi nəzərdə tutulmuş və həyata keçirilmişdir. Dünyanın tanınmış və nüfuzlu media rəhbərləri, ekspertləri rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri müzakirə edərək Azərbaycan Prezidenti cənab İlham Əliyevə ünvanladıqları suallara ətraflı cavab almışdılar. Forum çərçivəsində Qoşulmama Hərəkatı Media platforması təşəbbüsü də irəli sürülmüş bu sahədə Azərbaycanın rəhbərliyi dövründə ilk addımların reallaşdırılması planlaşdırılmışdır. Bu böyük tədbir idi. Dünyanın aparıcı media qrumları Azərbaycan həqiqətləri ilə üz-üzə idilər. Onların bunun, əsas gördükləri reallıqların əksini yazmaq istəsələr də, hər bir iş göz önündə idi. Azərbaycan 44 gün davam edən müharibədə öz ocağını, evini mərd övladlırının qanı ilə, Ali Baş Komndan cənab İlham Əliyevin düşünülmüş siyasəti ilə azad etmişdir. Bu danılması mümkün olmayan bir həqiqətdir.

Şuşa şəhəri 21 iyul tarixində müstəqil Azərbaycanın tarixində ilk dəfə idi ki, dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya toplamışdı. Bu onun azadlığının, bu onu sevən xalqımızın qəhrəmanlığının təzahürü idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün verilmiş sualları dəqiqliklə cavablandıraraq bir daha Azərbaycan dövlətinin qitiyyətli mövqeyini göstərmişdir. Cənab prezident İlham Əliyevin qeyd etdiyi kimi "Qarşıdan gələn illərdə Türkiyə və Azərbaycan regionda daha önəmli rol oynayacaqdır". Biz dövlətimizə dost olan ölkələrlə daim dost kimi münasibət quracağıq. Hiylə ilə yaxınlaşanlar isi xalqımızın "Dəmir yumruq" birliyi nəticəsində yenidən sarsılacaqlar. Ümid edir, inanmaq istəyirik ki, Şuşada, Birinci Şuşa Qlobal Media Forumunda iştirak edən əcnəbi jurnalistlər Azərbaycan həqiqətlərini təbliğ edərkən, bu mövzuda yazarkən təhriflərə yol verməyəcəklər.

***"GÜNDOĞAR"***

# AZƏRBAYCAN MƏTBUATININ BANİSİ – 148 İL ÖNCƏ



O, əsl maarifçi, xeyirli işlər üçün fədakar doğulan şəxsiyyət idi. Bu yolda yorulmaz, məqsədə doğru inadlı...

Qarşısına çıxan manelər onu qorxutmurdu. Əksinə, bir az da möhkəmləndirirdi qətiyyətini...

Həsən bəy Zərdabidən danışırıq, əziz oxucular. Bu gün sizlərin də çox az müraciət etdikləri, virtual izlədikləri qəzetlərdən və onun ilk yaradıcısı Həsən bəy Zərdabidən...

Böyük çətinliklərdən sonra o, Bakıda ana dilində "Əkinçi" qəzetinin nəşr edilməsi üçün icazə almışdı. Bu qəzetin ilk nömrəsi 1875-ci il iyulun 22-də çapdan çıxmışdı. "Əkinçi" qəzetinin nəşri bütün Qafqazda əks-səda doğurmuşdu. 1875-1877-ci illər ərzində fəaliyyət göstərmiş qəzetin 56 nömrəsi işıq üzü görmüşdü. "Əkinçi" qəzeti xalqımızın milli oyanışında, milli birliyinin möhkəmlənməsində böyük rol oynamışdır. Lakin "Əkinçi"nin ömrü uzun sürmədi. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başladı və sonda qəzetin nəşrini dayandırdı. "Əkinçi" ilə başlanan bu estafet sonradan "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", Məmməd Ağa Şahtaxtinskinin Tiflisdə nəşr etdirdiyi "Şərqi Rus", "Həyat", Əhməd bəy Ağaoğlunun yaradıcısı olduğu "İrşad", "Füyuzat" kimi mübariz mətbu orqanlarla davam etdirildi. Ziyalıların bu addımları cəmiyyətin aparıcı simalarını, o zamanın iş adamlarını da vahid platforma ətrafında birləşdirirdi. Bakının azərbaycanlı milyonçuları millətin oxuya biləcəyi, maariflənəcəyi mətbu orqanların nəşrinə maddi dəstək göstərirdi. Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və maddi köməyi ilə Bakıda rus dilində "Kaspi" qəzeti dərc olunurdu.

O vaxtdan ötən 148 ildə müxtəlif tənəzzül və intibah dövrləri keçən Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü rolunu oynayıb.

1998-ci ildə "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanın imzalanması ölkə mətbuatının inkişaf tarixində mühüm hadisə kimi yadda qalmışdır. Məhz Ulu Öndər Heydər Əliyevin imzaladığı bu Fərmanla Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşdü. Ardıcıl olaraq yenilənmə baş verdi. 1999-cu ilin sonunda qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" yeni qanun



mətbuatda demokratik prinsiplərin daha da möhkəmləndirilməsinə xidmət etdi. 2000-ci ilin martında Ulu Öndərin Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqamı" təsdiq olundu, Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı. Ulu Öndər Heydər Əliyev bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarını dondurdu. Bundan başqa, Ulu öndər Heydər Əliyev cəmiyyətdə jur-




nalistlərə münasibətin formalaşmasında mühüm rol oynadı. Ümummilli Lider Heydər Əliyevi mətbuatın problemləri ilə daha yaxından tanış olması bu sahəyə diqqəti artırdı.

O qeyd edirdi ki, "Jurnalist əməyi qeyri-adi əməkdir. Böyük səy, zəhmət, cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir".

Bütün ölkə jurnalistləri Ulu Öndər Heydər Əliyevi təkcə ölkə başçısı kimi deyil, həm də bir dost kimi tanıyırdılar. Bu rəğbət 2002-ci ildə Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Jurnalistlərinin Müdafiə Komitəsi tərəfindən keçirilən sorğu nəticəsində "Jurnalistlərin dostu" mükafatına layiq görülməsinə səbəb olmuşdu. Bu gün bütün bu dəyərlər ölkə rəhbəri, Prezident İlham Əliyev tərəfindən ardıcıl, layiqli şəkildə davam etdirilir.

22 iyul "Milli Mətbuat və Jurnalistika Günü "Neftçala rayonunda da böyük ehtiramla, dəyərlərə sayğı, keçmişə ehtiram, gələcəyə inam hissi ilə qeyd edilmişdir. Ulu Öndər Heydər Əliyev və Milli Mətbuat tariximiz" mövzusunda təşkil edilmiş tədbirdə Ulu öndər Heydər Əliyevin, vətən uğrunda can fəda edən şəhidlərimizin xatirəsi ehtiramla yad edilmişdir. Görüş iştirakçıları Neftçala rayon "Gündoğar" qəzetinin redaksiyasında yeni hazırlanan "Gündoğar"ın yaddaşında yaşayanlar" xatirə guşəsinə baxış keçiriblər. Tədbir dəyirmi masa ətrafında davam edərək mətbuatımızın tarixi, dünəni, bu günü haqqında səmim fikirlərlə davam etmişdir.

***B. NİFTALİYEVA***

# SƏYYAR GÖRÜŞLƏR DAVAM EDİR

*Əhalinin rifahının yaxşılaşdırılmasına yönəldilmiş xidmətdir səyyar görüşlər. Bu görüşlərin keçirilməsi hər ay tərtib edilmiş cədvəl üzrə uğurla həyata keçirilir. Kənd sakinləri rayon rəhbərliyi ilə görüşərək onları narahat edən çətinliklər, fəaliyyətlərinin səmərəli olması haqqında daha əhatəli məlumat əldə edə bilirlər. Belə görüşlərdə həmçinin müxtəlif mövzularda maarifləndirici tədbirlər də həyata keçirilir ki, bu da, xüsusilə dövlət siyasətinin əsas istiqamətləri haqqında əhalinin biliklərinin artırılmasına kömək edir. Birliyimizin bütün sahələrdə vacib olması amili bir daha vurğulanır.*







İyul ayında Neftçala rayonu üzrə Bankə qəsəbəsində, Mikayıllı, Aşağı Qaramanlı, Tatarməhəllə kəndlərində səyyar görüşlər keçirilmişdir. Keçirilən görüşlərdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak etmişdir.

Təşkil edilən səyyar görüşlərdə 100 illik yübileyini qeyd etdiyimiz Ulu öndər Heydər Əliyevin, müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda candan keçən şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Səyyar görüşlərdə çıxış edənlər "Ali Baş Komandan cənab İlham Əliyevin "Böyük Qayıdış" siyasəti, bu gün işğaldan azad olunan ərazilərdə uğurla icra olunur", "Heydər Əliyev və müasir Azərbaycan mətbuatının inkişaf xüsusiyyətləri", "14 iyul 1969-cu il zirvəyə yüksəlişin başlandığı gündür" mövzularında əhalini ətraflı məlumatlandırıblar.

Neftçala RİH-in başçısı Mirhəsən Seyidov səyyar görüşlərdə 44 gün davam edən Vətən müharibəsindən, müharibədə iştirak edən vətən oğullarının igidliyindən, döyüş yolundan, sentyabr ayının 12-dən 13-nə keçən gecə və 10 aprel 2023-cü ilin tarixində düşmənin təxribatı zamanı hərbçilərimizin qəhrəmancasına döyüşməsindən, döyüşlər zamanı ordumuz üçün əhəmiyyətli yüksəkliklərin əldə olunmasından, düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalan şəhidlərimizdən danışıb, cəsur hərbçilərimiz haqqında məlumat verib. Vətən şəhidlərini ehtiramla yad edərək onların ailələrinə dərin hüznlə başsağlığı vermişdir. Həmçinin rayonda aparılan quruculuq işləri haqqında da məlumat verərək görülmüş işləri, reallaşan layihələri əhalinin diqqətinə çatdırmışdır.

Ay ərzində keçirilən səyyar görüşlər zamanı əhalinin əsas müraciət etdikləri mövzular elektrik xətlərinin yenilənməsi, suvarma kanallarının lildən təmizlənməsi, idman alətlərinin quraşdırılması və digər məsələlərlə bağlı olmuşdur. Qeyd edilən məsələlər müzakirə olunaraq həlli istiqamətində rayon rəhbərliyi tərəfindən tapşırıqlar verilmişdir. Digər problemlərin həllinin araşdırılması üçün qəbuldan sonra müvafiq şöbələrə və şəxslərə tapşırıqlar verilmişdir.

Səyyar görüşlərdə həmçinin vətəndaş məmnunluğunu artırmaq və xidmət keyfiyyətinin yaxşılaşdırılmasının təmin olunması məqsədilə vətəndaşlar Neftçala Rayon İcra Hakimiyyəti ilə həm onlayn, həm də yerində görüşlər üçün yeni yaradılan "Rəqəmsal İcra Hakimiyyəti" https://rih.gov.az portalına daxil olmaqla müraciət imkanı əldə edə bilmək haqqında sakinlərə geniş məlumat verilmişdir.



Əhali belə görüşlərin keçirilməsi, respublikamızda, eyni zamanda rayonumuzda həyata keçirilən quruculuq işlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

# ŞƏHİD ÖMÜRLƏR UNUDULMUR!

***Vətən müharibəsi şəhidi baş leytenant Əsəd Əsədovun xatirəsinə mini-futbol üzrə rayon turnirinin final mərhələsi keçirilib***



25 iyul tarixində Vətən müharibəsi şəhidi baş leytenant Əsəd Əsədovun xatirəsinə mini-futbol üzrə rayon turnirinin final mərhələsi keçirilib. Final mərhələsini Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, futbol komandaları və rayon ictimaiyyəti izləyib.

Final mərhələsində isə Bavariya və Kərim market komandaları qarşılaşıb. Bavariya komandası 4:3 hesabı il qələbə qazanaraq şəhid Əsəd Əsədovun xatirəsinə həsr olunan mini- futbol üzrə rayon birinciliyinin qalibi olub. Məlumat üçün bildiririk ki, turnirdə 16 mini-futbol komandası iştirak edib.

Şəhid ömürlər unudulmur. Keçdikləri fədakarlıq zamanla ürəklərdən-ürəklərə yol alır, yaşayır. Qorxmaz, fədakar vətən oğullarından biri idi



Vətən müharibəsi şəhidi baş leytenant Əsəd Cəmaləddin oğlu Əsədov. Yaşadığı ömürdə hər kəsin rəğbətini qazanaraq bu gün də şirin xatirələrlə yad edilir. O, 29 mart 1978-ci ildə Neftçala rayonu Tatarməhlə kəndində anadan olmuşdur. Neftçala rayon 1 saylı tam orta məktəbində təhsilini başa vuraraq, 1999-cu ildə BDU-nin İqtisadiyyat fakültəsinə daxil olmuş, müvəffəqiyyətlə ali təhsilini bitirmişdir. Müxtəlif məsul vəzifələrdə çalışan şəhid Əsəd Əsədov 2020-ci ildə 21 sentyabr tarixindən təlimlərə qoşulmuş, 27 sentyabr tarixindən isə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan Vətən müharibəsində iştirak etmişdir. Döyüşlərdə şücaət göstərərək vuruşan Əsəd Əsədov Füzuli şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabr ayının 13-də Neftçala şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Üç övlad atası olan Qəhrəman şəhidimiz Əsəd Cəmaləddin oğlu Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı, 24.06.2021-ci il tarixli Sərəncamına əsasən "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə", 3-cü dərəcəli «Rəşadət» ordeni ilə təltif edilib. Ruhu şad olsun.

Şəhid baş leytenant Əsəd Əsədovun xatirəsinə həsr edilmiş mini-futbol üzrə rayon turnirinin qaliblərini təbrik edir, daim uğurlu yol diləyirik.





*ŞƏHİDLƏR UNUDULMAYACAQDIR!*

# ŞƏHİD RÖVŞƏN AĞAMALIYEVİN XATİRƏSİ YAD EDİLDİ



23 iyul 2023- il tarixində I Qarabağ döyüşlərində itkin düşən, məzarsız şəhidimiz Rövşən Baloğlan oğlu Ağamalıyevin əziz xatirəsi yad edildi. Şəhidimizin adına tikilmiş xatirə bulaq kompleksində xatirəsi yad edildikdən sonra tədbir mərasim evində davam etmişdir. Mərasimdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, din xadimləri, qazilər, ictimaiyyət nümayəndələri və ağsaqqallar iştirak edib.

Tədbirdə vətən uğrunda can fəda edən bütün soydaşlarımızın əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə çıxış edənlər, şəhidin ailə üzvləri və qonaqlar şəhid Rövşən Ağamalıyevin döyüş yolundan söhbət açaraq ruhuna dualar ediblər. Bildirilib ki, Ağamalıyev Rövşən Baloğlan oğlu 7 sentyabr 1975-ci ildə Neftçala rayonu Bankə qəsəbəsində anadan olub. Bankə qəsəbə 1 saylı tam orta məktəbi bitirib. Ağdamın Mərzili, İsmayılbəyli, Bağmanlar kəndləri uğrunda gedən döyüşlərdə xüsusi igidliklər göstərib və 23 iyul 1993-cü ildə Ağdam rayonunun Atçılıq savxosunun azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Döyüşlərdə göstərdiyi şücaətə görə Ağamalıyev Rövşən ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olunub. Şəhidin medalı Ulu Öndər Heydər Əliyev tərəfindən şəhidin atası Baloğlan Ağamalıyevə təqdim olunub.



Mərasimdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabrın 27-də başlanan və 44 gündə qələbə ilə başa çatan Vətən müharibəsinin tarixi əhəmiyyətindən danışıb, Rövşən və onun kimi igid, qəhrəman şəhidlərimizin qanının yerdə qalmadığını diqqətə çatdırıb. RİH-in başçısı həmçinin şəhid ailələri və qazilərin hər zaman Prezident cənab İlham Əliyev tərəfindən diqqət və qayğı ilə əhatə olunmasını diqqətə çatdırıb. Qeyd edilib ki, Neftçala rayonunda da daim bu diqqət və qayğı ardıcıl olaraq davam etdirilir. Ruhu şad olsun Rövşənin və bütün vətən şəhidlərinin. Şəhidlər xalqımızın haqq yolu, mübarizlik tarixidir. Bu yol heç zaman unudulmayacaqdır.

# RUHUN ŞAD OLSUN, KAMRAN!

***ŞƏHİD BAŞ LEYTENANT KAMRAN HÜSEYNOVUN 28-Cİ DOĞUM GÜNÜ EHTİRAMLA QEYD EDİLDİ***

12 iyul 2023-cü ildə şəhid baş leytenant Kamran Hüseynovun doğum günü Neftçala rayon Şəhidlər Xiyabanında qeyd edildi. Xatirə tədbirində Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- muhafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhidin döyüş yoldaşları, şəhid ailələri, qazilər, din xadimləri və ictimaiyyət nümayəndələri iştirak edib.

***SƏNİN ARZU VƏ XƏYALLARININ ƏN GÖZƏL ÇİÇƏYİ OLAN VƏTƏN TORPAĞI GETDİYUN MÜQƏDDƏS YOLU HEÇ ZAMAN SOLDURMAYACAQDIR!***



Şəhidlərin xatirəsinin yad edilməsi, Dövlət Himnimizin səsləndirilməsi ilə başlayan anım tədbirində çıxış edənlər qəhrəman şəhidlərimizin vətən sevgisinin ucalığını qeyd etmişlər. Bütün vətən şəhidlərinin xatirəsinin hər bir vətəndaşımız üçün əziz olduğu vurğulanıb. Bildirilib ki, nə qədər vətən yaşayacaqsa onun varlığının səsi, sorağı olan şəhid oğullar da ən parlaq səhifəsində yaşayacaqlar. Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, şəhidin atası Namiz Hüseynov, digər çıxış edənlər şəhid baş leytenant Kamran Hüseynovun həyat yolundan, döyüş xatirələrindən danışıblar. Tədbirdə iştirak edən bir qrup məktəbli şəhid baş leytenant Kamran Hüseynova həsr edilmiş şeirlərdən ibarət ədəbi kompozisiya nümayiş etdiriblər. Kamran Hüseynovun hərbi işə olan böyük marağı, vətənsevərliyi, dəfələrlə yüksək bacarığına görə təltif edilməsi qeyd edilib. Şəhidin valideynləri dövlət tərəfindən göstərilən diqqət, qayğıya görə Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.



Gənc ömrünü vətən üçün fəda edən şəhid baş leytenant Kamran Namiz oğlu Hüseynov 12 iyul 1995-ci ildə Neftçala şəhərində anadan olub və xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Şəhid Hüseynov Kamran Namiz oğlu 4 mart 2023-cü il tarixində Neftçala şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Hərbi xidməti dövründə baş leytenant Hüseynov Kamran Namiz oğlu Azərbaycan Respublikası Prezidentinin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən «Kəlbəcərin azad olunmasına görə» medalı, 24.06.2021-ci il tarixli Sərəncamlarına əsasən "İgidliyə görə", «Cəbrayılın azad olunmasına görə», «Xocəvəndin azad olunmasına görə» və «Şuşanın azad olunmasına görə» medalları ilə, Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə nazirinin 0158t nömrəli 26.06.2018-ci il tarixli əmri ilə «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə, 0184t nömrəli 03.11.2020-ci il tarixli əmri ilə "Şücaətə görə" medalı ilə və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25.06.2023-cü il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı ilə təltif edilmişdir. Ruhu şad olsun. Allah səbir versin əzizlərinə.

*"GÜNDOĞAR"*



# QƏHRƏMANLAR ƏBƏDİYAŞARDIR!

## VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI CAMAL İSMAYILOVUN DOĞUM GÜNÜ QEYD OLUNUB

7 İyul 2023-cü ildə Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xüsusi Təyinatlı Qüvvələrin baş giziri Vətən Müharibəsi Qəhrəmanı şəhid Camal İsmayılovun 39 yaşı qeyd olunub. Xatirə tədbirində şəhid baş gizir Camal İsmayılovun Neftçala rayon Şəhidlər Xiyabanında məzarı, Həsənabad qəsəbəsində abidəsi ziyarət olunub və ruhuna dualar oxunub. Tədbirdə Neftçala RİH-in başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, döyüşçü yoldaşları və qazilər iştirak edib. Tədbir İştirakçıları Camal İsmayılova həsr olunan rəsm sərgisi ilə tanış olublar.

Neftçala rayon Camal İsmayılov adına Uşaq İncəsənət məktəbində davam edən tədbirdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun xatirəsinə həsr olunmuş tədbirdə çıxış edən şəhidin atası Vidadi İsmayılov, bacısı Xəyalə Ağamalıyeva, şəhid Elyar Vəliyevin atası Arif Vəliyev, Azərbaycan Yazıçılar Birliyinin məsul işçisi və "13 Əfsanə" kitabının redaktoru, yazıçı Güləmail Murad, döyüş yoldaşı Ayar Abbasov, Azərbaycan Dövlət Radiosunun "Vətən yaşasın" verilişinin redaktoru, şair- publisist Ötərxan Eltac, AYB-nin üzvü Ruhəngiz Nəcəfova, AYB-in üzvü, " 13 Əfsanə"



kitabının müəllifi Elnur Uğur Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsində qazandığı qələbədən və bu qələbədə iştirak edən şəhid Camal İsmayılovun şücaətindən, keçdiyi döyüş yolundan söhbət açıblar. Qeyd edilib ki, 2020-ci ilin sentyabrın 27-də düşmənin törətdiyi təxribata qarşı əks-hücuma başlanan Vətən Müharibəsində Camal İsmayılov bir neçə əməliyyatda fədakarlığı elə seçilib. Xüsusilə, Hadrut qəsəbəsinin alınmasında, Laçın dəhlizində Camal İsmayılovun göstərdiyi şücaət misilsiz olmuşdur. Tədbirdə həmçinin Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun həyatını əks etdirən videoçarx nümayiş olunub. Tədbirdə çıxış edən Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun qızı Əsnad İsmayılova L.V.Bethovenin K. Elize" əsərini ifa edib.



Xatirə tədbirində çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov bu gün ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin siyasi yolunu uğurla davam etdirməsi, uzaqgörən və qətiyyətli siyasəti nəticəsində 30 ilə yaxın işğalda olan torpaqlarımızın xalqımızın birliyi, müzəffər ordumuzun peşəkarlığı sayəsində azad olunduğunu qeyd etmişdir. Bildirmişdir ki, qəhrəman gənclərimizin vətən uğrunda göstərdikləri fədakarlıq dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onların hər biri orden və medallarla təltif edilib, ailələri dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Tədbirdə Qəhrəman Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Tədbir Neftçala şəhər Camal İsmayılov adına Uşaq İncəsənət məktəbinin hazırladıqları kompozisiya ilə davam etmişdir.

### *VƏTƏN EŞQİN SORANLARA BİR ÖRNƏKDİR ÖMÜR YOLUN!*

# Yaşatmaq - YAŞAMAQDIR!




O ömürlər ki, vətən üçün, xalq üçün əbədiyyətə ucalmışdır, onlar əbədiyyətin parlaq işığıdır. Dünənimizin fədakar, örnək ömür yoludur. Onlar bizdən ötrü yandılar, şəhadətə yüksələrək ucalıqdan boylandılar. Vətənimizin tarixini qoruyaraq ona şərəf səhifəsi yazdılar. Təki Vətən yaşasın!-dedilər. Biz bu ömürlərə çox borcluyuq, ÇOX...

Belə fədakar ömürlər üçün qələmi ilə daim yaşatmaq istəyini reallaşdıran yazarlarımızdandır Ələkbər Zahidov. Onun yazıçı-publisist Əlövsət Poladla birlikdə qələmə aldığı «XXI əsrin Qarabağnaməsi» kitabı şəhid ömürlərə bir işıq salan yaddaş salnaməsidir. Ələkbər müəllim bu günlərdə Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun həyat və fəaliyyətinə, qəhrəman döyüş yoluna, hərbçi ömrünə həsr etdiyi «CAMAL ƏFSANƏSİ» adlı jurnalı Qəhrəmanımızın doğum günündə onun ailəsinə təqdim etmişdir. Eyni zamanda Neftçala rayon Camal İsmayılov adına Uşaq İncəsənət məktəbində təqdimatı həyata keçirilmişdir.

22 iyul tarixində Ələkbər müəllim Qəhrəman Vətən oğluna həsr edilmiş jurnalın bir nüsxəsini də redaksiyamıza hədiyyə etdi.

Yazan qələminiz, istəyiniz, təşəbbüskarlığınız davamlı olsun, hörmətli Ələkbər müəllim. Bu dəyərli xatirə - jurnal gələcək nəsillərə bir ərməğandır.

Çox təşəkkür edirik. Qəhrəman Camalımızın ruhu şad olsun. Allah səbir versin əzizlərinə. Allah bütün şəhidlərimizin məkanın behişt eləsin.Amin.

"CAMAL ƏFSANƏSİ" jurnalının təşəbbüsçüsü və yazıları toplayanı Ələkbər Zahidov, redaktoru Adilə Nəzərova, tərtibatçı və korrektoru Gülqədəm Mirzəzadədir. İlk səhifə Qəhrəmanımızın "Döyüş meydanı zinətsiz həyat və ölümdən ibarətdir. Doğmalarımız ağlasa da, vətən və xalq qarşısında öhdəliklərimiz ömürdən daha vacibdir!" ifadəsi ilə başlayır. Jurnal bir vətənsevərlik, qəhrəmanlıq yolunu aydınladır, öyrədir.



Vətən müqəddəsliyi necə olur, onu Qəhrəman vətən övladı necə dərk edir, bu yolda nələri göz önünə gətirir - sevə-sevə yazılan məqalələrdə, xatirələrdə açıqlanır. Burada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbir versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı" ifadəsi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın "...Ədalətsiz, işğalçı siyasətin qarşısını almaq üçün bizim qəhrəman ordumuz, qəhrəman övladlarımız var. Azərbaycan xalqı üçün hər bir əsgərimiz dəyərlidir, əzizdir. Dünyanın ən böyük sərvəti olan ömrünü vətən naminə qurban verən hər bir övladımız Azərbaycanın tarixində qəhrəman kimi yaşayacaq" sözləri gələcək nəsillərə Vətən əmanəti missiyasıdır. Ayaq açıb gəzdiyimiz torpağın minlərlə vətənsevərin qanı üzərində qorunduğunu unutmamaqdır!





Jurnalda Qəhrəman vətən oğlunun həyat və fəaliyyəti, döyüş yolu geniş işıqlandırılmışdır. "Əfsanəyə dönən həqiqət" AYB-nin üzvü Gülqədəm Mirzazadənin, "Camal əfsanəsi", "Sən mənimçün xatirə ola bilməzsən" xatirə yazıları Qəhrəmanımızın anası Filara İsmayılovanın, "Qəhrəmanlıq dastanının müəllifi" Millət vəkili, Xalq şairi Sabir Rüstəmxanlının, "Sən tarix boyu yaşayacaqsan" Camal İsmayılovun xalası, qaynanası Cəvahir xanımın, "Vətən sevdalı Qəhrəman" AYB-nin üzvü, Filologiya üzrə fəlsəfə doktoru Adilə Nəzərovanın, "13 ƏFSANƏ" AYB-nin üzvü Elnur Uğurun, "Sağalmayan yaram Camal və ya cənnətdəki ruhlara məktublar" AYB-nin üzvü Ruhəngiz Əşrəfqızının, "Məktəb illərindən xatirələr" hərbi rəhbər Cavid Babayevin, "Camal hamıdan fərqli idi" Sevil müəllimənin, Yol insan ömrünün ani təsviridir?" Ərkinaz müəllimənin, "Çox hərbçilər pensiyaya çıxmırlar" Samirə Xankişiyevanın, "Hadrut fatehi" Qarabağ Qazisi Səxavət Salmanovun, "Xatirələrim" Qarabağ Qazisi Mahir Məmmədovun, "Camal haqqında xatirələrim" XTQ-nin kiçik çavuşu Seyidbala Əliyevin, "Camalla birlikdə keçdiyimiz çətin döyüş yolları" döyüş yoldaşı Ayar Abbasovun, "Yaman olur dost itkisi, dost ayrılığı" Qəhrəmanımızın dostu Həzrət Zahidlinin, "Camal İsmayılovun da büstünün ucaldığı Həsənabad qəsəbəsindəki parkın tarixçəsi" yazıçı Ələkbər Zahidovun qələmində oxucuların qəlbinə, qəlbindən yaddaşına yol aldı. Bu yollar uzun illəri adlayacaq, nəsillərdən-nəsillərə, əsrlərdən-əsrlərə qəhrəmanlıq ruhunu yaşadacaqdır.
RUHUN ŞAD OLSUN, QƏHRƏMAN !

**BƏDİRƏ RZA**

# MƏNALI ÖMRÜN SƏHİFƏLƏRİ

## *Habil Əsədovun “Ana Kürün nağılları” (xatirə roman) kitabı haqqında*

***Hərtərəfli və ahəngdar ömür notları üzərində qurulan hər kəsin yaşam tərzində, gün-güzəran psixologiyasında yaxşı insan olmaq məramı, aludəçiliyi çox vacib sayılan mənəvi təbdir.***

İnsanın şəxsiyyət kimi formalaşmasında ailə, məktəb və ictimaiyyət birliyinin təsir imkanları nə qədər tutarlı və lakonik ecazkarlıq məzmunu kəsb etsə də, şəxsin özünün müvafiq xarakterinin cilalanması yolunda birmənalı olaraq, şəxsi əmək fədakarlığı olmadan onun peşəkar fəaliyyətindən, mətin iradi-mənəvi keyfiyyətindən söz açmaq mümkün olmaz.

“Yaxşı insan” kimdir? Onun xislətinin inkişaf yolu həyatda necə qazanılır, bu xoş niyyətli kamil insan övladının yetişməsində əsl fədai ömrü yaşamağın çox mühüm məqamları vardır. Həyatda, təhsil və tərbiyə prosesində mənalı ömür yaşamağın müxtəlif üsul və vasitələri haqqında zəmanət verən özünütərbiyə amili isə bütövlüyü ilə təhsilləndirici mahiyyətli iş birliyi olub, şəxsi fəaliyyətin aparıcı yadrosu kimi həmişə uzaq hədəfləri ehtiva edərək, etibarlı nəsil yetişdirməyin əsasını qoymuşdur. Bu sahədə peşəkar, ümidverici həyat dolaylarını keçib gələn hər bir insanın tarix səhnəsində öz yeri və mövqeyi var.

...Belə bir ömür səltənəti üzərində köklənmiş insanlardan biri də hamı üçün aydın və anlaşıqlı məzmun mahiyyəti kəsb edən, yaradıcı təfəkkürü ilə gənc nəslə örnək olan, ömrünü bu yolda şamtək əridən naşir, jurnalist, biblioqrafik-mütəxəssis, mütaliə pedaqogikası üzrə tanınmış, mühərrir, mərhum Habil Əsəd oğlu Əsədovdur. Onun bütün yaradıcılıq yolu həyatda özünü təsdiq etmiş, aldığı rəsmi mükafatlar, təltiflər, xalq və vətəndaş etimadları əsl şəxsiyyəti xarakterizə edən mənəvi üstünlüklər kimi sağlığında belə, ona çox güvənc və etibarlı adam, halal statuslu ziyalı mövqeyi qazandırmışdır. Məhz, bu baxımdan məqsədim həyatdan vaxtsız köçmüş, istedadlı qələm sahibi, dözümlü, sağlam mənəvi-psixoloji ömür yaşamış Habil Əsədov fenomeni haqqında çox çətin, lakin şərəfli bir missiyanı həm hüquqi, həm də mənəvi dəstəklə tamamlayan fəaliyyətinə uzunömürlülük və əbədiyaşarlıq nümunəsi olaraq çıraq tutan “Ana Kürün nağılları” (xatirə-roman) silsiləsindən olan kitabı haqqında fikir və mülahizələrini bildirməklə, bir daha onun mənalı ömrünə dayaq olan bu tutumlu əsər haqqında təhlil-tərkib aparmaqdır.

Onu da qeyd edək ki, geniş oxucu kütləsinə təqdim olunan “Ana Kürün nağılları” kitabı xatirə təəssüratlar əsasında yazılmış memuar-biblioqrafik əsərdir.

Kitabın xüsusən yeni nəslə aşıladığı təhsilləndirici məzmun ideyaları, novator mahiyyəti, orijinallıq üslubu ibrətamiz və aforistik deyimlər kontekstində şərh olunduğundan müəllifin ömür yollarının tarixi-müqayisəli təhlil zəminində aparılması da diqqətəşəyan bir hadisədir. Müəllif qayəsində özünəməxsusluq keyfiyyəti kitabın bədii-estetik təsir gücünü artırmaqla oxucuya daha yüksək zövq və şəfqət bəxş edir. Kitabın dil lakonikası, üslub xüsusiyyət, təhlil manerası, inkişafetdirici siqləti onu deməyə əsas verir ki, müəllif həm də romançılıq janrına yeni təhkiyə və təhlil aspektləri gətirmiş, bu yolda kreativ yanaşma səpkisindən də faydalı təxəyyül materialı kimi istifadə edərək öz üslub texnikasını ehtiva etmişdir.

...Bu cür fundamental, tarixi-xronikal salnamə mənbələrinə istinad edən kitabın araya-ərsəyə gəlməsində əsl yaradıcı məfkurə ilə, peşəkarcasına iş görmüş, unikal səriştəsi olan Əlövsət Əkbər oğlu Əliyevin (redaktoru və kompüterdə yazıb tərtib edəni), Tünzalə Əsgərovanın (korrektoru və məsləhətçisi), Ədalət Hüseynovun (dizyner və şəkilləri üzərində işləyəni) müstəsna əməyi olmuşdur. Onların fikir və mülahizələrinin dolğun, sistemli və ardıcıl tərtibat prinsiplərinə istinad edərək zəngin illüstrativ materiallardan, arxiv, muzey, sərgi materiallarından tutarlı bir vasilə olaraq istifadə etmələri çox nəcib və şərəfli bir iş kimi dəyərləndirilməlidir.

“Təqdim olunan “Ana Kürün nağılları” xatirə-romanı Neftçala rayonunda çıxan “Gündoğar” qəzetinin mərhum baş redaktoru, respublikanın əməkdar jurnalisti Habil Əsəd oğlu Əsədovun sağlığında tamamlaya bilmədiyi ilk kitabı, ilk iri həcmli əsəridir. Kitabın yarımçıq hissələrinin tamamlanmasına müəllifin ömür yoldaşı Tünzalə xanım Əsədova və “Gündoğar” qəzetinin kompüterçisi Ədalət Hüseynov böyük kömək göstərib. Kitabın tərtibat formatı da nəfis və aydın fabulada öz əksini tapmışdır. Müasir ümumişlək texnologiyalar əsasında verilən izahlı şərhlər, aforistik deyimlər, ailə, məktəb, ictimaiyyət vəhdəti ilə əlaqəli təhsilləndirici materialların bölmə, fəsil və yarımfəsillərdə müfəssəl ifadə olunması oxucu üçün kitabı oxunaqlı və rəvan edir. O cümlədən, biblioqrafik nəşrlərdə rəngli formatla işıq üzü görən illüstrasiyaların salınması bu qəbildən olan çap məhsulları üçün çox əfsəldir. Tərtibçilər məhz, bu konsepsiyanı əsas meyar götürməklə, kitab üzərində səhih və lakonik, tutumlu iş formaları müəyyənləşdirməklə öz işlərini yüksək səriştəliliklə tamamlamışlar.




Bir yazarın həyat manifestinə çevrilən “Ana Kürün nağılları (Xatirə romanı)” üz cildi, forzası, epiloq və proloq əvəzi mətnləri, ayrı-ayrı şəxslərin portret şəkilləri, digər illüstrativ materiallar toplusu məhz, bu münasibət spektri üzrə qruplaşdırılaraq kitabı olduqca oxunaqlı və maraqlı edir.

Kitabın məzmun dəyərliliyi haqqında da yetərli fikir söyləmək mümkündür. Onun əsas ideya istiqaməti İnsan-təbiət-cəmiyyət dilemması üzərində qurulduğundan verilən şərhlər, aydınlaşan mətləblər, incələnən məsələlərin qoyuluş tərzi, inandırma metodları, fakt və hadisələri bədii-fəlsəfi hikmət lakonikası ilə izah və təhlil etmə bacarığı demək olar ki, həm kitab müəllifinin, həm də tərtibçilərin mühakimələrində səlis və axıcı mahiyyətdə aşkarlanmışdır. Belə ki, yazılan və irəli sürülən müddəalarda həm müəllif şərhi, həm də müəllif haqqında xatirə-oçerklər öz dərin həyati məzmunu və aktuallığı ilə fərqlənən, orijinal mülahizələrə istinadən təhlil edilərək oxucuya təqdim olunmuşdur. Kitabda həmin meyar oxucu üçün bu cür təqdim olunur:

“...Həzin, kövrək, nağılvari bir dildə, ovqatda qələmə alınmış kitabda müəllif eniş-yoxuşlu həyatı fonunda yaxınları, doğmaları barədə ətraflı məlumat verir, çalışdığı qəzetin, yaşadığı rayonun və respublikanın həyatında baş vermiş mühüm tarixi hadisələr haqqında geniş söhbət açır. Bu cəhətdən əsər avtobioqrafik çərçivədən çıxaraq böyük tarixi əhəmiyyət daşıyır.

Burada “Gündoğar” qəzetinin, Neftçala rayonunun və respublikamızın yaxın və uzaq keçmişində baş vermiş bir çox mühüm hadisələrlə ətraflı tanış olmaq olar.

Kitabın birmənalı olaraq məzmun mündəricəsi yüksək obrazlı dil çalarları, yerli ləhcə və toponimlərin, etnoqrafik səciyyə daşıyan milli dəyərlər sisteminin maarifləndirici zəmində, didaktik səviyyədə inikası problematikası olduqca uğurlu bir araşdırma manerasından xəbər verir. Xüsusən, yaşanmış ömrün böyük bir silsiləsini naşir, mühərrir, redaktor qismində fəda edən bir yazarın yalnız öz ailə sferasındakı tədqiqini yox, onun bütün təfsilatlarda elmin, təhsilin inkişafına yardımçı olan axtarış yollarının ictimai müstəvidə, ictimai baxışlar sistemində sosiallaşma faktorları ilə səciyyələndirilməsidir.

Bu gün mətbuat pedaqogikası üçün çox ümidverici bir sərvət olan milli və ümumbəşəri dəyərlərin qorunub saxlanılmasında bu ricətli kitabların böyük təsir gücü vardır. Çünki, böyüyən nəslin öz şəcərəsini, ailə sülaləsini, milli yaddaşını, genezisini; soy-kökünü layiqincə bilməsi ümumxalq və ümumdövlət səviyyəli bir işdir.

Kitab iki hissədən ibarət toplum materiallar əsasında qələmə alınmışdır.

I hissədə müəllif öz təqdimatını bu adla “Kəndimizin, məktəbimizin, “Ana Kürün hekayəti uşaqlıq və gənclik xatirələrim” ünvanlaşdırır. II hissədə isə yazdıqlarına ictimai məzmun prizmasından yön verərək “Rayonumuzun qısa tarixi, mənim jurnalistik fəaliyyətim” başlığı ilə oxucu görüşünə gəlir.

Demək olar ki, bütövlükdə bu kitab Neftçala və neftçalalılar haqqında müasir oxucuya real həyati dünyagörüşün qazandırmaqda yeni ritualların möhkəmlənməsi yolunda gənc nəslə örnək olası ibrətamiz fakt və hadisələrlə zəngin ensiklopedik nəşr kimi çox faydalı və önəmli bir epopeyadır. İnanırıq ki, onun gələcək nüsxələrində bu kitabın yazılma meracı, maarifləndirici fabulası daha geniş və əhatəli ümumiləşdirmələrə yol açıb, böyüyən nəslin stolüstü kitabına çevriləcəkdir.

Son söz olaraq onu deyim ki, “H.Əsədovun mətbuat sahəsində çoxillik xidmətləri respublikanın, eləcə də çalışdığı rayonun rəhbərliyi, yaradıcılıq təşkilatları tərəfindən layiqincə qiymətləndirilib və bundan sonra da qiymətləndiriləcək. O, prezident İlham Əliyevin sərəncamı ilə 2005-ci ildə əməkdar jurnalist fəxri adına, 2011-ci ildə isə “Tərəqqi” medalına layiq görülüb. H.Əsədov həmçinin “Qızıl qələm” və “Araz” ali ədəbi media mükafatları laureatıdır, bir çox digər mükafatların sahibidir. Onun bariz həyat nümunəsi bu gün də xatirəmizdə yaşayır və əziz tutulur. Respublikamızın dəyərli bir ziyalısının bu dəyərli əsəri gələcək nəsillər üçün xoş bir töhfədir. Xatirələr sorağı ilə yol qət edib, elmi-bədii araşdırma aparan hər bir tədqiqatçı-alim, araşdırmaçı bu kitabın elmi-mədəni siqlətindən bəhrələnməklə məhsuldar və faydalı bir ziyalı şəxsiyyətinə həmişə “əhsən” deyəcəkdir. Bunu isə bizdən həyatın özü tələb edir.

***Vidadi Başirov,***
***Azərbaycan Dillər Universitetinin dosenti,***
***pedaqogika üzrə fəlsəfə doktoru***

# QURUCULUQ İŞLƏRİ DAVAM EDİR



Neftçala şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə paylayıcı şəbəkələrin tikintisi davam etdirilir.

Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən icra olunan layihə çərçivəsində şəhərdə içməli su şəbəkəsinin yenidən qurulması işləri yekunlaşmaq üzrədir. Rayonun Bankə qəsəbəsində də mərkəzləşdirilmiş içməli su şəbəkəsi yaradılır.

Neftçala şəhərinin və rayonun bir sıra kəndlərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 2020-ci ildə Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə 40 km uzunluğunda magistral su kəməri və Salyan şəhəri yaxınlığında həcmi 7500 kubmetr olan su anbarı inşa edilib. 2020-ci ilin noyabr ayında həmin kəmərdən Neftçala şəhərinə suyun verilməsi təmin olunub. Şəhərin su təchizatında dayanıqlığın təmin olunması, həmçinin içməli sudan ciddi əziyyət çəkən digər yaşayış məntəqələrinin su təminatının yaxşılaşdırılması məqsədilə Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə 38 km uzunluğunda ikinci magistral su kəməri çəkilib və 2023-cü ilin may ayında istismara verilib. Neftçala şəhərinə magistral su kəmərlərinin inşası ilə paralel şəhərdə paylayıcı şəbəkələrin yenidən qurulması işləri həyata keçirilir. Hazırda Neftçala şəhərində 144 km içməli su şəbəkəsinin və 140 km tullantı su şəbəkəsinin tikintisi intensiv qaydada davam etdirilir. Eyni zamanda Bankə qəsəbəsində 39 km mərkəzləşdirilmiş içməli su şəbəkəsi yaradılması işləri yekunlaşmaq üzrədir.

Gələcəkdə Neftçala şəhərində 8,6 km kanalizasiya kollektorunun və məhsuldarlığı sutkada 4000 kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası nəzərdə tutulur.

Xatırladaq ki, Neftçala şəhərində ilk mərkəzləşdirilmiş su təchizatı sistemləri ötən əsrin 70-ci illərində yaradılıb. Vaxtilə şəhərə içməli su Kür çayından götürülüb qismən təmizlənərək verilirdi. Son illər Kür çayında su səviyyəsinin kəskin azalması çay suyunu içməyə yararsız hala salmış, Neftçala şəhərinin və rayonun kəndlərinin içməli su təminatında ciddi çətinliklər yaranmışdı.

Neftçala rayonunda son illər həyata keçirilən içməli su layihələrindən rayon mərkəzi və magistral su kəmərinin marşrutu boyu kəndlərdə yaşayan 80 mindən çox sakin faydalanacaq.



## BU YOLUN İŞIĞI SƏNSƏN, ŞƏHİDİM!



KƏDƏR İNSANI YORAR, CƏSARƏT VƏ MƏTANƏT İSƏ YOLU SEÇƏR VƏ İRƏLİ GET! - DEYƏR.

BƏLİ, GƏLƏCƏYƏ İNAMLA BAXMAQ, ŞƏHİD ÖMÜR YOLDAŞINI ƏMANƏT ÖVLADLARI İLƏ BİRLİKDƏ YAŞATMAQ İSTƏYİ VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDİMİZ BAŞ LEYTENANT ƏSƏD ƏSƏDOVUN HƏYAT YOLDAŞI ÜLKƏR XANIM ƏSƏDİ İLK QƏLƏM NÜMUNƏLƏRİNİN CAP OLUNMASINA SƏSLƏDİ...

ÜLKƏR XANIM ƏSƏDİ ƏDƏBİ YARADICILIQ YOLUNDA İLK QƏLƏM NÜMUNƏLƏRİNİN "YAZARLAR" ANTOLOGİYASINDA ÇAP OLUNMASI MÜNASİBƏTİLƏ SƏMİMİ QƏLBDƏN TƏBRİK EDİRİK.

YAŞAYIN VƏ YAŞADIN! - DEYİRİK.

O ZAMAN ƏZİZ ŞƏHİDLƏRİMİZİN DƏ RUHU ŞAD OLACAQDIR!

# MEŞƏLƏRİ YANĞINDAN QORUYUN

Bioloji cəhətdən öz inkişafında bir-birinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin,heyvanat aləminin, mikroorqanizmlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın ən qiymətli milli təbii sərvəti hesab olunur.

Təəssüf hissi ilə qeyd etməliyik ki, bəzən ayrı-ayrı insanların meşə təsərrüfatına qayğısızlığı, onun qorunub saxlanılmasına laqeydliyi meşə ərazisində kortəbii, idarə olunmayan alovun yayılması və bütün ərazidəki bitki örtüyünün yanması ilə nəticələnən meşə yanğınları törədərək təbiətin bu əvəzsiz nemətinin məhv olmasına gətirib çıxarır.

Meşə yanğınlarından bəhs edərkən xüsusilə vurğulanmalıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülmədən kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir.

Meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl olunması zəruridir. Meşə sahələrində söndürülməmiş kibritin, yanan siqaret qalığının və ya kötüyünün atılması, eləcə də tonqalların yandırılması və ağac kömürü istehsal etmək üçün xüsusi ocaqxanaların təşkil edilməsi qadağandır. Küləkli havada tonqalların qalanması xüsusilə təhlükəlidir.

Meşələrə sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərə bulaşmış əski və digər materialları atmaq olmaz. Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxili yanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir.

Dövlət meşə fondunun, meşə torpaq fondu ilə həmsərhəd olan sahələrdə quru-muş otların, kövşənlərin müəssisələr, idarələr, təşkilatlar və fermer təsərrüfatları, eləcə də əhali tərəfindən yandırılmasına icazə verilməməlidir.

Meşələrdə yanacaq sürtkü yağlarının açıq şəkildə saxlanılması da yanğın təhlükəlidir.

Yanğın təhlükəsindən uzaq olmaq üçün meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə müəyyən olunmuş qaydada yığılıb saxlanılmalıdır.

Turist istirahət zonaları, gənclər və uşaq təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlər zamanı tonqallar yalnız Meşə mühafizəsi və Bərpası müəssisəsinin icazəsi ilə bu təşkilatın ayırdığı xüsusi yerlərdə qalana bilər.Tonqal heç bir halda ağacın altında (xüsusən də budaqları aşağı sallanan ağacların altında) yandırılmamalıdır. Quru ağac kötükləri və quru ot olan ərazidə də od qalamaq olmaz. Tonqalı söndürüb oranı tərk edən zaman közün üstü torpaqla örtülməlidir. Söndürülmüş torpaqdan tüstü və ya buxar çıxarsa, ondan aralanıb getmək, tələsmək olmaz. Gedərkən əmin olmaq lazımdır ki, tonqal tam sönüb və sonradan alışma ehtimalı yoxdur.

Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin tör-töküntülərindən təmizlənməsi təmin edilməli, meşə ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Bütün bunlarla yanaşı meşələrimizlə əlaqəsi olan hər bir vətəndaş təbiətin bu əvəzsiz sərvətinin yanğın təhlükəsizliyinin qayğısına qalmalıdır.

**FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN DÖVLƏT YANĞIN NƏZARƏTİ XİDMƏTİNİN MUĞAN REGİONAL DÖVLƏT YANĞIN NƏZARƏTİ İDARƏSİ**

**UŞAQLARI SEVƏK VƏ QORUYAQ!**

# "Uşaqların doğulanadək cins seçiminə yox deyək!"

Uşaqlar cəmiyyətimizin bəzəyi, həyatımızın sevinci, gələcəyimizin ümididir. Onlara qarşı hər zaman diqqət və qayğı isə vacib amildir.

26 iyul 2023-cü il tarixində Neftçala rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Gender əsaslı zorakılıq və və Uşaqlara qarşı zorakılıq üzrə monitorinq komissiyasının təşkilatçılığı ilə "Uşaqlar doğulanadək cins seçiminə yox deyək!" mövzusunda dəyirmi masa ətrafında görüş keçirildi. Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya qurluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi ehtiramla yad edildi.



Tədbirdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu, həkimlər, "Gündoğar" qəzetinin redaktoru, Neftçala rayon MKS-nin əməkdaşları, rayon sakinləri və eləcə də RİH-də həyata keçirilən könüllük proqramı əsasında fəaliyyət göstərən gənclər iştirak edib. Görüş zamanı gender əsaslı cins seçimi, uşaqlar arasında cinsə görə nisbətin pozulmasını şərtləndirən əsas səbəblər, uşaqlar doğulanadək cins seçiminin qarşısının alınması və ailələrdə doğulan azyaşlılar arasında oğlan uşağına verilən üstünlüyün azaldılması, bu üstünlüyün kökündə dayanan gender stereotipləri və s. barədə geniş məlumat verilib, iştirakçılar mövzu haqqında öz fikir və təkliflərini bildiriblər.

# ÇÖRƏK HİMNİ ƏN MÜQƏDDƏS NƏĞMƏDİR

## *Ənvər Qənbəroğlunun yeni kitabı: «ÇÖRƏK HİMNİ»*

Poeziya elə bir zirvədir ki, ora yalnız pak, nəcib, xeyirxah qəlb sahibləri çıxa bilərlər. Poeziya həyata, insani duyğulara çağırış kimi səslənməli, ruha qida verməlidir. Bu baxımdan Ənvər Qənbəroğlunun yenicə çapdan çıxmış "Çörək himni" kitabında toplanmış şeirlər həyatla həmahəng səsləşən, insani duyğularla, həyat həqiqətləri ilə zəngin poeziya toplusu kimi səciyyəvidir. Vətənə məhəbbət, insana inam, təbiətə qayğı, gözəlliyə, ülviliyə çağırış bu kitabda toplanan şeirlərin əsas mövzusunu təşkil edir.

Ənvər müəllim hərtərəfli istedada malik bir ziyalımızdır. O, poeziya ilə yanaşı həm də gözəl musiqiçidir. Müxtəlif musiqi alətlərində, - sazda, tarda, gitarada, skripkada məharətlə ifa etməyi bacarır, gözəl musiqi əsərləri bəstələyir. Hansısa filosov gözəl deyib: "Şeir musiqinin dili, dilin musiqisidir". Bu baxımdan Ənvər müəllim, həm musiqiyə, həm də poeziyaya bu qədər aşiqdir. Onun şeirləri həqiqi mənada qəlbinin nəğmələridir.

Ənvər müəllim, hansı mövzuda yazırsa yazsın, həmin mövzuya özünəməxsus yanaşmağı bacarır. Əzəli və əbədi mövzu olan Vətən haqqında yazdığı şeirlər öz orjinallığı ilə seçilir. Şair heca vəzninin bütün formalarından bacarıqla istifadə edir və müraciət etdiyi mövzunun bədii həllinə ustalıqla nail olur. Öz doğma kökünə bağlılıq, qoynunda ərsəyə çatdığı torpağa vurğunluq kitabdakı şeirlərində bədii əksini tapmışdır.

Kitabın adının götürüldüyü "Çörək himni" adlı poemanın bədii-ideya dəyəri yüksək insani duyğuların məhsuludur:




Çörək kəsmək kişilərdən qalıbdır ***miras,***
***Ağır olur*** "çörək kəsmək" məsuliyyəti.
***"Bala, halal*** çörəyini ***torpaqdan istə",***
***Atam hərdən kövrələrdi, köks*** ötürərdi***.***

Şair bu poemada oxucunu ən müqəddəs nəğmənin çörək himni olduğuna inandırır. Poema o qədər ilhamla yazılıb ki, birnəfəsə oxunur. Onun dili, bədii-estetik nüansları, təşbeh və mübaliğələri orjinal və təbiidir.

Şair bu günki tariximizi, Vətənimizin dərdlərini yüksək poetik dillə, ürək ağrısıyla çatdırmağı bacarır, oxucunu inandırır.

***Xalqım*** *çox* ***olubdur yollar yorğunu,***
***Ağ saçlı tarixim söyləyir bunu,***
***Millət ki, unutdu kim olduğunu,***
***Qalmaz bu torpaqda izi, qardaşım.***

***(Qürbətin yolları)***

***Və yaxud:***
***Göydən gəlib*** *əslim,* ***soyum,***
***Mənəm, türk oğlu türkəm mən.***
***Günəş –mayam, bulud-suyum,***
***Mənəm, türk oğlu türkəm mən.***

***(Türk oğlu türkəm mən)***

Kitabda Ənvər müəllimin poeziyaya təsadüfü gəlmədiyini sübut edən bu gözəl bədii, vətənpərvərlik nümunələrdən başqa onlarla ədəbiyyata töhfə olan şeirlər vardır.

Mənə belə gəlir ki, oxucuların ixtiyarına verilmiş bu kitab həvəslə oxunacaq, hər bir oxucu müəllifin istəyinə müvəffəqiyyətlə nail olduğunu təsdiq edəcəkdir. İnanırıq ki, müəllifin "Çörək himni" adlandırdığı bu yeni kitabı da əvvəlki "Oğuz harayı" kitabı kimi oxucuların qəlbinə yol tapacaq və uğurlu olacaqdır.

Ənvər müəllimi yeni kitabı münasibəti ilə təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

***Müzəffər MƏZAHİM,***
***AYB-nin üzvü, şair-publisist***

**BİRLİKDƏ YAŞADAQ!**




**"Gündoğar" qəzeti 22 iyul**

**"Milli Mətbuat və Jurnalistika Günü" münasibətilə bütün qələm sahiblərini, maarifsevərləri, mətbuata dəyər verənləri, əziz oxucularını təbrik edir.**

**Birlikdə qüvvət var, həyat var.**

**Gəlin, dostlar, birlikdə yaşadaq, "Gündoğar"ın səhifələrində bu günümüzü gələcəyə daşıyaq!**

**UNUTMADIĞIMIZ**

**BİR HƏQİQƏT VAR – DÜNƏNİMİZ!**

**O SABAHIN MƏKTƏBİDİR!**

**ELAN**

**BİLDİRİLİR Kİ, NEFTÇALA RAYON SAKİNİ, VƏTƏNDAŞ AĞAVERDİYEV NATİQ ƏLDƏMİR OĞLUNA NEFTÇALA RAYON HƏRBİ KOMİSSARLIĞI TƏRƏFİNDƏN VERİLMİŞ № 072112 SAYLI MÜHARİBƏ VETERANI VƏSİQƏSİ İTDİYİ ÜÇÜN ETİBARSIZ SAYILIR.**

**Baş redaktor**

**B.H. NİFTALİYEVA**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.

Ünvanımız: Neftçala şəhəri, H. Əliyev prospekti 38.
Telefon: (21) 26-3-44-03
e-mail: gundogarqazeti@gmail.com
AZ95AIIB33080019446400258164
VÖEN: 6500044671

Qəzet "Gündoğar"ın kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərmedia" mətbəəsində çap olunmuşdur.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun olmaya bilər.
Tiraj: 250
Qiyməti 50 qəpik.